UOT 32
DOI: https://doi.org/10.30546/19063.2026.06.5010

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA SÜLH PROSESİ: REALLIQLAR VƏ NƏZƏRİ ƏSASLAR

ÜZEYİR HABİL OĞLU MUSTAFAYEV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Beynəlxalq münasibətlər və xarici siyasət kafedrası", siyasi elmlər üzrə fəlsəfə doktoru
Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74
E-mail: mustafayev.uzeyir.33@gmail.com
https://orcid.org/0009-0009-1514-4406

HƏSƏN ELÇİN OĞLU XƏLİLLİ
Bakı Dövlət Universiteti
Bakı ş., Akademik Zahid Xəlilov küç.33
E-mail: khalillihasan06@gmail.com
https://orcid.org/0009-0007-2821-208X

XÜLASƏ

Yaxın tarixdə Cənubi Qafqaz regionundakı geosiyasi vəziyyəti əsaslı şəkildə dəyişdirən və özündən sonra tamamilə yeni siyasi konfiqurasiya formalaşdıran iki mühüm tarixi hadisə vardır. Bunlardan həm xronoloji, həm miqyas baxımından birincisi Sovet Sosialist Respublikaları İttifaqının (bundan sonra SSRİ) dağılması, ikincisi isə qısa müddətdə, yəni 44 gün ərzində davam etməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsidir. Birinci Qarabağ müharibəsi SSRİ-nin dağılması ərəfəsində başladığından onun da nəticələrini SSRİ-nin süqutu ilə əlaqələndirmək mümkündür. Hətta 2008-ci il Rusiya-Gürcüstan müharibəsi belə Cənubi Qafqaz regionunu qeyd olunan iki mühüm tarixi hadisə qədər dəyişdirə bilməmişdi. SSRİ-nin dağılması uzunmüddətli status-kvo vəziyyəti yaratsa da, təhlükəsizlik və sülh aspektləri kifayət qədər zəif idi. İkinci Qarabağ müharibəsindən sonra isə regionda hər kəs üçün arzuolunan uzunmüddətli təhlükəsizlik mühitinin formalaşdırılması və təminatının müəyyənləşdirilməsi imkanı vardır.

Məqalədə, Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunması imkanlarına İkinci Qarabağ müharibəsinin nəticələrindən biri kimi yanaşılmış və bu xüsusda Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sülh quruculuğu prosesi təhlil edilmişdir. Araşdırmanın nəzəri əsasında Con Paul Lederakın "Münaqişə Transformasiyası" nəzəriyyəsinə istinadlar edilmiş və hələ də davam etməkdə olan siyasi proseslərə bu yanaşma çərçivəsində qiymət verilmişdir.

Açar sözlər: *Qarabağ, müharibə, sülh, təhlükəsizlik, münaqişə, Cənubi Qafqaz.*

GİRİŞ

İkinci Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması həm Cənubi Qafqaz regionunda, həm də Azərbaycan ilə Ermənistan arasında yeni təhlükəsizlik arxitekturasının formalaşmasının əsasını qoydu. Müharibənin sona çatmasından 3 il sonra, yəni 19-20 sentyabr 2023-cü il tarixində lokal xarakterli antiterror tədbirlərinin həyata keçirilməsi ilə Qarabağdakı erməni miatsumunun[1] son dayağı hesab olunan qondarma-separatist idarəetmə özünün tamamilə ləğvini elan etdi və Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu [3]. 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanat və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini təmin etməsi, o cümlədən seperatçı rejimin tamamilə ləğvi formalaşan yeni təhlükəsizlik arxitekturasının əsasını təşkil edir. Uzunmüddətli sülhün təmin olunması və region üçün təhlükəsizlik mühitinin formalaşdırılması postmünaqişə dövründə Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biridir.

Müharibədən sonra həm regional, həm də ikitərəfli əməkdaşlıqlar üçün yeni imkanlar mühiti yarandı. Yeni imkanlar dedikdə, yalnız Azərbaycan-Ermənistan yox, eyni zamanda Ermənistan-Türkiyə əlaqələrinin formalaşmasını, ölkələr arasında qarşılıqlı iqtisadi mühiti və enerji faktoru kimi məqamları vurğulamaq mümkündür. Geosiyasi vəziyyətin yaratdığı imkanlardan faydalanmaq üçün isə qarşılıqlı etimad, uzunmüddətli sülh və təhlükəsizlik başlıca şərtdir. Bu səbəbdən münaqişələrdən sonrakı sülh quruculuğu prosesinə xüsusi diqqətlə yanaşmaq

1 Erməni dilində birləşmə mənasını verən bu ifadə Qarabağın Ermənistana birləşdirilməsi məqsədini daşıyan seperatçı erməni ideologiyasının adıdır.

lazımdır. Bu proses münaqişə tərəfləri arasındakı gələcək münasibətlərin ilkin mərhələsini təşkil edir. Münaqişənin bitməsi hələ tərəflər arasında münasibətlərin normallaşması demək deyil. Sülh quruculuğu dövrü xüsusi həssas period hesab olunur. Bu periodun məntiqi nəticəsində ya arzuolunan sülh əldə edilir, ya da gələcək münaqişənin fundamental əsasları hazırlanır. Birinci Dünya müharibəsindən sonrakı sülh prosesinin ədalətsiz və tərəflərin hər biri üçün qaneedici olmaması, İkinci Dünya müharibəsinin başlanmasının əsaslarını formalaşdırmışdı.

Bütün müharibələrdən sonra olduğu kimi, Ermənistan-Azərbaycan münaqişəsinin də hərbi fazasının yekunlaşmasından sonra üç əsas suala aydınlıq gətirmək zərurəti meydana çıxdı:

1. Uzunmüddətli sülhü təmin etmək üçün nədən başlanılmalıdır?
2. Gələcəkdə yeni iddiaların yaranmasının və müharibənin yenidən başlanmasının qarşısını necə almaq olar?
3. Təhlükəsizlik təminatı necə olacaqdır?

2020-ci ildən etibarən aparılan Azərbaycan-Ermənistan sülh danışıqlarının qısa xülasədə əsas motivləri məhz bu suallar üzərində qurulmuşdu. Dövrün geosiyasi vəziyyəti qısa müddətdə suallara verilən cavabları tez-tez dəyişsə də, siyasi-diplomatik səylər cavabların bütün dövrlər və vəziyyətlər üçün keçərli olmasını təmin etmək üçün səfərbər edilmişdi.

Sülh quruculuğu: məqsədlər və problemlər

Müharibədən dərhal sonra Azərbaycan Ermənistanla sülh danışıqlarının başlanılmasını elan etdi. 2020-ci il üçtərəfli bəyanatından sonra Ermənistanın sülhdən başqa çıxış yolu qalmamışdı. Tərəflər üç sualdan birincisinin cavabını müəyyənləşdirməli idilər. Sülhün fundamental əsaslarını təşkil edən ilk məqam təbii ki, prosesin "necə?" və "nəyə əsasən?" aparılacağını müəyyənləşdirən baza prinsipləri ilə bağlı idi.

Baza prinsipləri dedikdə, münaqişə tərəfləri tərəfindən qəbul edilən və dəyişdirilməz hesab olunan müddəalar başa düşülür. Bütün qanunların konstitutsiyaya əsaslanması kimi, münaqişə tərəflərinin də gələcək addımları və yekun sülh sazişi baza prinsiplərinə söykənir. Məfhumun mahiyyətini tam dərk etmək üçün münaqişənin yaxın tarixindəki nümunəyə baxaq.

Ermənistanda 2018-ci ildə inqilabla hakimiyyətə gələn Nikol Paşinyanın demokratik ruhlu təzahür bağışlaması münaqişənin sülh yolu ilə həll olunması ümidini artırırdı. Qısa müddət sonra səsləflərindən daha kəskin bəyanatlar verməsi və şovinist siyasətə xüsusi diqqəti bu gözləntiləri tamamilə məhv etdi. Daxili siyasətdə populizmə xüsusi önəm verən və milliyyətçi şüuru yenidən daxili siyasətin mərkəzinə qoyan N.Paşinyan qısa müddət sonra Ermənistanın Azərbaycana qarşı apardığı irridentist siyasəti açıq şəkildə dəstəkləməyə və daha da genişləndirməyə başladı [5, s.7].

Türkiyə ilə də münasibətlərdə xüsusi gərginlik yarandı. Osmanlı İmperiyasının Birinci Dünya müharibəsindəki məğlubiyyətindən sonra 1920-ci ildə imzalanmış, lakin heç vaxt qüvvəyə minməmiş Sevr müqaviləsinin 100 illiyinin qeyd olunması və N.Paşinyanın çıxışlarında dəfələrlə bu müqavilənin əhəmiyyətini vurğulaması erməni şovinizminin daha da genişlənməsini göstərirdi. Sevr müqaviləsinə bu qədər diqqət ayrılması səbəbsiz deyildi. Bu müqavilədə Osmanlı imperiyasının parçalanmasından sonra ermənilərə də ərazi güzəştləri nəzərdə tutulurdu. Hüquqi əsası olmayan, heç bir zaman qüvvədə olmamış bu müqavilənin əvəzində isə Türkiyə Cümhuriyyətinin müasir sərhədlərini müəyyənləşdirən Lozanna müqaviləsidir [7].

Araşdırma üçün aktual olan ən vacib məqam isə Azərbaycanla razılaşdırılmış danışıqlar prosesinin hüquqi-nəzəri əsasını təşkil edən baza prinsiplərindən və Madrid razılaşmalarından imtina edilməsi idi. 30 ilə yaxın tarixi dövrdə Azərbaycan-Ermənistan sülh danışıqları prosesi N.Paşinyanın imtina etdiyi baza prinsipləri əsasında aparılırdı. Bu prinsiplərə riayət edilməsi tərəflərin əsas öhdəliyi hesab olunurdu. Ermənistan rəhbərliyinin danışıqların fundamental əsaslarından imtina etməsi Azərbaycanın legitim hərbi gücündən istifadə etməsinə hüquqi zəmin yaratdı. Nəticədə münaqişə sülh danışıqları ilə yox, hərbi gücdən istifadə ilə sonlandı.

Yaxın tarixə olan qısa baxış bir daha göstərir ki, baza prinsipləri anlayışı böyük əhəmiyyət kəsb edir. Bu prinsiplərin dəqiq, dünyəvi və gələcəkyönümlü formalaşdırılması, habelə tərəflərin hər biri tərəfindən qəbul edilməsi formalaşmaqda olan sülhün ən vacib şərtidir. 2021-ci ildə Rusiyanın vasitəçiliyi ilə bir sıra görüşlər keçirilsə də, gələcək sülhün əsasını təşkil edəcək baza prinsiplər müəyyənləşməmişdi. 2022-ci ilin fevralında Azərbaycan rəsmi olaraq, münasibətlərin və sülhün formalaşmasının baza prinsipini təşkil edəcək 5 bəndlik təkliflərini irəli sürdü.

1. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
2. Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;

3. Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;

4. Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;

5. Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması [10, s. 5].

Bu prinsiplər Azərbaycan Respublikasının postmünaqişə dövründə sülh quruculuğunun təmin olunması üçün vacib olan məqamları özündə ehtiva edir. Erməni tərəfinin onlara təklif olunan 5 prinsiplə bağlı cavabı isə 2022-ci ilin aprel ayında yeni 6 prinsipin irəli sürülməsi ilə oldu. Həmin prinsiplər gələcəkdə yeni münaqişənin başlanması üçün yeni zəminin formalaşdırılması xarakteri daşıyırdı. 2022-ci ilin may ayında Ermənistan Respublikasının xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan tərəfindən 6 prinsip ictimaiyyətə açıqlandı:

1. Ermənistan martın 11-də Ermənistan tərəfinə təhvil verilmiş 21 fevral tarixli məktuba cavab verir.

2. Ermənistan MDB-nin yaradılması haqqında Azərbaycan Respublikası ilə 8 dekabr 1991-ci il tarixli sazişə əsasən Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Ermənistan 1992-ci il fevralın 18-də onu ratifikasiya edib.

3. Erməni tərəfi üçün prioritet Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat, onların hüquq və azadlıqlarına hörmət edilməsi, habelə Qarabağın yekun statusunu müəyyən etməkdir.

4. Erməni tərəfi Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikasının Baş nazirinin, Rusiya Federasiyası Prezidentinin 10 noyabr 2020, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli bəyanatlarında göstərilən öhdəliklərin (müharibə əsirlərinin qaytarılması, kommunikasiyaların açılması) yerinə yetirilməsini vacib hesab edir.

5. Erməni tərəfi sülh müqaviləsinin bağlanması, BMT Nizamnaməsi və dövlətlərarası münasibətlərin qurulmasına dair digər beynəlxalq sənədlər (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və Helsinki Yekun Aktı) əsasında Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə danışıqlara başlamağa hazırdır.

6. Müvafiq danışıqların təşkili üçün Ermənistan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinə müraciət edib [6].

Təklif edilən baza prinsiplərindən birincisi məlumat xarakteri daşıyırdı. Digərlərində sülh və təhlükəsizlik məqamları vurğulansa da, ATƏT-in Minsk qrupunun saxlanılması cəhdi və "Dağlıq Qarabağın statusu" ilə bağlı məqamların olması açıq şəkildə Azəbaycanın ərazi bütövlüyünə qarşı yeni münaqişə predmetinin formalaşdırılması cəhdi idi. 2023-cü ilin antiterror tədbirləri və siyasi gedişat Ermənistanın Azərbaycan tərəfindən irəli sürülən 5 prinsiplə razılaşması ilə nəticələndi. Beləliklə, ilk sualın cavabı müəyyənləşdi. Digər suallar isə daha uzunmüddət tələb edən və böyük siyasi gedişatı özündə əhatə edir.

Postmünaqişə dövrünün nəzəri əsasları

Azərbaycan ilə Ermənistan arasındakı sülh prosesini yalnız siyasi gedişatı yox, eyni zamanda böyük nəzəri proseduru özündə əhatə edir. Bu dövrü bir sıra nəzəriyyələrlə təfsir etmək mümkün olsa da, onların arasından biri xüsusi olaraq fərqlənir. Tanınmış amerikalı alim, sosioloq və münaqişə tədqiqatçısı olan Con Paul Lederakın (John Paul Lederach) müəllifi olduğu **"Münaqişə Transformasiyasının Kiçik Kitabı"** adlı əsərdə postmünaqişə dövrü geniş təhlil edilir. O, konfliktlərin aradan qaldırılmasını və postkonflikt dövrlərini təhlil edərkən iki termini - **"münaqişə həlli"** və **"münaqişə transformasiyası"**nı bir-birindən fərqləndirir. Müəllifin fikrincə, müharibə aparan tərəflərdən birinin digəri üzərindəki total qalibiyyətə nail olması hələ həmin münaqişənin bitməsi demək deyil. Bu qalibiyyət münaqişəni həll edir, amma onun yaradıcı səbəblərini aradan qaldırmır. Nəticədə, gələcəkdə də, eyni səbəbdən qaynaqlanan münaqişənin yenidən başlanması ehtimalı daimi təhdid kimi qalır.

Münaqişənin tam tranformasiyasının reallaşmasını müəllif 3 fərqli araşdırma mərhələsində müəyyən edir.

1. ***Mövcud vəziyyət***

Mərhələ, münaqişə tərəflərinin konfliktin tarixini və yaranma səbəblərini yenidən araşdırması ilə başlayır. Qarşıdurmanın münaqişəyə keçməsinin səbəbləri araşdırıldıqca keçmişdə baş verən bütün neqativ hallar ortaya çıxır. İcmalararası uzunmüddətli sülhü təmin etmək üçün tarixi araşdırmağa, nümunələr gətirməyə başlanılanda, eyni zamanda münasibətləri daha da gərginləşdirən məqamlar aşkar olunur. Beləliklə, tərəflər **"tarixilik paradoksu"** ilə üzüzə qalırlar, yəni postmünaqişə dövründə münaqişə transformasiyası etmək istəyəndə tarixdə yaşanan bütün gərginliklər bir daha xatırlanır [8, s. 32-33]. Bəs tərəflər niyə tarixi araşdırmağa üz tuturlar? Cavab çox sadədir – yalnız tarixi detallı tədqiq etməklə

münaqişəyə gətirib çıxaran səbəbləri aydınlaşdırmaq mümkün olur.

İkinci Qarabağ müharibəsindən sonra başlanan sülh danışıqları prosesində də bənzər hal müşahidə olunmuşdu. Belə ki, 2020-ci ildən 2023-cü ilədək Azərbaycan-Ermənistan arasındakı təmaslarda erməni tərəfi Qarabağın "tarixi" və "cari" idarəetməsi ilə bağlı məqama aydınlıq gətirmək istəyirdi. Birinci Qarabağ müharibəsinin başlanma səbəblərindən biri kimi, yəni münaqişənin yaxın tarixdəki predmetində məhz muxtariyyət məsələsi xüsusi əhəmiyyət kəsb edirdir. Azərbaycanın mövqeyi qəti idi – hər hansı status yoxdur və ola da bilməz. Məhz bu səbəbdən erməni tərəfi baza prinsiplərini təklif edəndə məhz gələcək status məqamını xüsusi qeyd etmişdi. Bu yanaşma isə konstruktiv ola bilməzdi. Çünki münaqişə yaradan predmentin yenidən müzakirəyə qaytarılması və ya baza prinsiplərinə adaptasiyası münaqişənin nə həlli, nə də transformasiya yox, yeni müharibə demək idi. Bu kontekstdə 2023-cü ilin antiterror tədbirlərinin nəticələrini növbəti dəfə Ermənistanın sülhə məcbur olması və münaqişənin transformasiyası üçün zəruri olan tarixi paradoksun aradan qaldırılması kimi də qiymətləndirmək mümkündür.

2. *Gələcək üfüqü*

C.P.Lendarkın fikrincə, tərəflər öz aralarındakı tarixi paradoksu aradan qaldırdıqdan sonra, ikinci mərhələyə keçid edə bilirlər. Bu mrəhələdə **"həllər-əlaqələr-sistem"** üçlüsü bir-birindən həlqəvari formada asılı bir formul kimi hərəkət etməlidir. Birinci mərhələdən ikinciyə keçid üçün konstruktiv yanaşma mütləqdir. Konstruktiv yanaşma sonrası isə aşağıdakı suallar ortaya çıxır:

- Nə qurmağa ümid edirik?
- İdeal olaraq hansı vəziyyətin mövcud olduğunu görmək istərdik?
- Bütün səviyyələrə — həm birbaşa həllərə, həm də münasibətlərin və strukturların əsasını təşkil edən nümunələrə necə yanaşa bilərik?

Bu suallara cavab tapmaq üçün tərəflərin həll təklifləri və əlaqələr formalaşdırması mütləqdir [8, s. 34].

Azərbaycan-Ermənistan arasındakı münaqişə transformasiyası da C.P.Lendarkın üçlüsünə uyğun formada irəliləyir. Azərbaycan Ermənistanla olan danışıqların və mümkün həllərin müzakirəsini vasitəçilər olmadan baş tutması fikrini daim dəstəkləmişdir. Üçüncü, bəzən isə dördüncü tərəflərin proseslərdəki iştirakı istənilən halda yeni maraqların ortaya çıxmasına səbəb ola bilir. 2024-cü il 7 fevral tarixində ilk dəfə bütün Azərbaycan Respublikası ərazisində keçirilmiş prezident seçkilərində qalib gəldikdən sonra, Prezident İlham Əliyev 14 fevral 2024-cü il tarixində keçirilən andiçmə mərasimindəki nitqində bir sıra məsələlərə, xüsusilə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına toxunmuşdur. Azərbaycan Respublikasının Prezidenti iki məsələyə xüsusi diqqət yetirdi. Birincisi, Azərbaycanın Ermənistanın ərazisinə hər hansı bir iddiası yoxdur. Ermənistan siyasi hakimiyyətinin əlavə təminat tələbi isə əsassızdır. İkincisi, münasibətlərin normallaşdırılması və sülh sazişi istiqamətindəki danışıqlarda vasitəçilərə ehtiyac yoxdur [1].

Ermənistan rəhbərliyi də məsələnin həqiqi mahiyyətini dərk etdiyini göstərmiş və sülh danışıqları vasitəçilər olmadan davam etdirilmişdir. Həllərlə bağlı ən böyük nümunələr kimi iki məsələni göstərə bilərik. Birincisi, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi prosesi ilə bağlıdır. 15 may 2024-cü il tarixində baş tutan sərhədlərin müəyyənləşdirilməsi üzrə Dövlət Komissiyalarının doqquzuncu iclasında sərhədlərin delimitasiyası üzrə ilk razılaşma əldə olundu. Razılaşmaya əsasən Azərbaycan Respublikasının Qazax rayonundan iki ölkənin sərhədinin delimitasiyasına başlanıldı [4].

İkincisi isə yekun sülh sazişinin mətni ilə bağlı idi. 8 avqust 2025-ci il tarixində Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalandı. Bu Bəyannamənin imzalanması ilə

1. Azərbaycan-Ermənistan arasında yekun sülh sazişi paraflandı,
2. 2022-ci ildə baza prinsipi kimi ATƏT-in Minsk qrupunun fəaliyyətinin davamlılığını təmin etmək istəyən Ermənistan Minsk qrupunun ləğv olunması üçün Azərbaycanla birgə ATƏT-ə müraciət etdi,
3. Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunmasına dair öhdəlik bir daha öz təsdiqini tapdı,
4. Ermənistandan keçməklə inşa olunacaq "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi təsdiqləndi,
5. BMT nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq sərhədlərin toxulmazlığı fikri bir daha vurğulandı [2].

Bəyannamənin qəbul olunması ilə araşdırmanın əvvəlində aydınlaşdırmağa çalışdığımız üçüncü sualın cavabını əldə etmiş olduq. Tərəflər arasındakı təhlükəsizliyin təminatı həm özləri, həm beynəlxalq hüquq və nizamnamələr, həm də dünyanın fövqəl dövləti hesab olunan ABŞ oldu. Beləliklə, C.P.Len-

darkın münaqişənin tranfromasiyası üçün zəruri olan həllər mexanizmi öz təsdiqini tapdı.

Eyni zamanda diqqət çəkən məqam, yekun sülh müqaviləsi mətni ilə bağlı idi. XI və XII maddələr Sazişin yüksək hüquqi əhəmiyyətini dərk etməyə imkan verir. Belə ki, XI maddəyə əsasən *"Tərəflərdən hər biri onunla digər hər hansı üçüncü tərəf arasında hazırda qüvvədə olan beynəlxalq razılaşmaların onun bu Saziş üzrə götürdüyü öhdəliklərinə xələl gətirməməsini təmin edəcəklər."* Bu, o deməkdir ki, İkinci Qarabağ müharibəsi boyunca daim Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müdaxiləsini tələb edən, anti-Azərbaycan mövqeyindən çıxış edən dövlətlərlə ikitərəfli razılaşmalar əsasında addımlar atan Ermənistan daha bunların heç birini edə bilməyəcək. Açıq şəkildə qeyd *olunmuş "hazırda qüvvədə olan beynəlxalq razılaşmalar"* ifadəsi artıq tərəflərin həmin razılaşmalardan irəli gələn məsələlərini belə bu Saziş əsasında tənzimləməsini zəruri edir [9].

XII maddə isə yerli qanunvericiliklə bağlıdır – *"tərəflər ikitərəfli münasibətlərində beynəlxalq hüququ və bu Sazişi rəhbər tutacaqlar. Tərəflərdən heç biri özünün daxili qanunvericiliyinin müddəalarına bu Sazişi icra etməməyə haqq qazandırmaq üçün istinad etməyəcəklər"*. Buradan belə aydın olur ki, daxili qanunvericiliklə bu Sazişin hər hansı bəndi ziddiyyət təşkil edərsə, bu halda Saziş daha üstün tutulacaqdır. Daxili qanunverciliyə istinad etməklə Sazişin hər hansı bəndinin icrasından boyun qaçırılmayacaqdır. Bu, həm etimadın, həm də uzunmüddətli sülhün təmin olunması üçün zəruri maddədir. Bu maddəyə əsasən gələcəkdə belə daxili qanunvericiliyin dəyişdirilərək, Saziş əleyhinə istifadə olunması məhdudlaşdırılır. Belə ki, maddə hazırda qüvvədə olan daxili qanunvericiliyin müddəalarını yox, ümumiyyətlə daxili qanunvericiliyi əsas götürür. Bu da, onu deməyə imkan verir ki, heç bir qanun dəyişikliyi bu Sazişi pozmağa hüquqi əsas verə bilməz [9].

Bu maddələr eyni zamanda araşdırmanın əvvəlində verilən ikinci sualın cavabını təşkil edir. Tərəflər gələcəkdə yenidən müharibənin başlanmaması üçün hüquqi zəmin formalaşdıra biliblər.

3. *Dəyişiklik proseslərinin inkişafı*

C.P.Lendarkın sonuncu mərhələ kimi təsnifləndirdiyi bu mərhələdə proseslərə ümumi sfera kimi baxılır. Bu mərhələnin dəqiq komponentləri və proqnozlaşdırılan sonlanma tarixi yoxdur. Əslində bu mərhələ yox, yeni münasibətlər dövrünün başlanğıcı hesab oluna bilər. Transformasiya həm həlləri, həm də sosial dəyişiklik təşəbbüslərini kompleks şəkildə əhatə edir. Ümumilikdə, münaqişə transformasiyasının bütün mahiyyəti və münaqişənin həlli ilə aralarındakı əsas fərqləri cədvəl 1-də punktual şəkildə izah edilmişdir.

Münaqişələrin həlli və münaqişələrin transformasiyası: Perspektivlərin qısa müqayisəsi		
Meyarlar	**Münaqişə həlli perspektivi**	**Münaqişə transformasiyası perspektivi**
Əsas sual	Arzuolunmaz bir şeyə necə son qoymaq olar?	Dağıdıcı bir şeyə necə son qoyub, arzu olunan bir şey qurmaq olar?
Əsas diqqət	Məzmun mərkəzlidir	Münasibət mərkəzlidir
Məqsəd	Böhrana səbəb olan mövcud problemin həlli və razılaşmanın əldə olunmasına yönəlib.	Təcili həllərlə məhdudlaşmayan, onları da əhatə edən konstruktiv dəyişiklik proseslərini təşviq etməyə yönəlib.
Prosesin inkişafı	Münasibətlərdəki simptomların ortaya çıxdığı və mövcud vəziyyətin təcili xarakteri ətrafında formalaşır.	Mövcud problemi simptomlara cavab vermək və pozuntuların meydana çıxdığı sistemlərlə qarşılıqlı əlaqəyə girmək üçün bir fürsət kimi nəzərdən keçirir.
Vaxt çərçivəsi	Məqsəd qısamüddətli perspektivdə narahatlığa və çətinliklərə rahatlıq gətirməkdir.	Dəyişiklik perspektivi orta və uzunmüddətlidir və böhran tərəfindən idarə olunmaq əvəzinə, qəsdən böhrana cavab verməyə yönəlib.
Münaqişəyə baxış	Münaqişə proseslərinin gərginliyinin azaldılmasının zəruri olduğunu nəzərdə tutur.	Münaqişəni münasibətlər baxımından dinamik bir ekosistem kimi nəzərdən keçirir. Bu ekosistemdə prosesin enişi (konstruktiv dəyişiklik əldə etmək üçün münaqişənin gərginliyinin azaldılması) və yüksəlişi (konstruktiv dəyişiklik əldə etmək üçün münaqişənin gərginliyinin artırılması) mövcuddur.

Cədvəl 1

İstinad: *Lenderach, J.P. The Little Book of Conflict Transformaton s.30*

Cədvəl bir daha iki yanaşma arasındakı əsas fərqləri lakonik şəkildə ifadə edir. Qeyd etmək lazımdır ki, Birinci Qarabağ müharibəsindən sonrakı sülh danışıqları prosesi daha çox münaqişənin həlli yanaşmasına uyğun gəlirdi. Təklif edilən sülh paketləri tarixi səbəbləri aradan qaldırmır, əksinə qısamüddətli dövrdə həll kimi görünən yanaşma uzunmüddətli periodda status-kvonun müəyyənləşdirilməsi kimi qiymətləndirilirdi. İkinci Qarabağ müharibəsindən sonra tamamilə yenilənmiş siyasi diskurs isə münaqişənin sülhə çevrilməsinə hesablanmışdır.

NƏTİCƏ

Beləliklə, Con Pol Lederaxın münaqişə transformasiyası nəzəriyyəsi əsasında aparılan təhlil göstərir ki, Azərbaycan-Ermənistan sülh prosesində münaqişənin tarixi səbəblərinin aradan qaldırılması, konkret həll mexanizmlərinin formalaşdırılması və yeni münasibətlər sisteminin yaradılması istiqamətində mühüm irəliləyiş əldə edilmişdir. Sərhədlərin delimitasiyası, sülh sazişinin hazırlanması, nəqliyyat-kommunikasiya əlaqələrinin formalaşması və qarşılıqlı öhdəliklərin müəyyənləşdirilməsi bu transformasiyanın əsas elementləridir.

Nəticə etibarilə, İkinci Qarabağ müharibəsindən sonrakı sülh prosesi yalnız münaqişənin həlli deyil, Azərbaycan-Ermənistan münasibətlərinin uzunmüddətli transformasiyası kimi qiymətləndirilməlidir. Davamlı sülhün təmin olunması isə əldə edilmiş razılaşmaların icrasından, qarşılıqlı etimadın möhkəmləndirilməsindən və regional əməkdaşlığın inkişafından asılıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasının elektron külliyyatı. – Fevral 14, 2024. URL: https://full-text.preslib.az/icixislar/Uun0i17aZW.html
2. Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. – Avqust 09, 2025. URL: https://president.az/az/articles/view/69572
3. Azərbaycanın tam suverenliyini və ərazi bütövlüyünü təmin edən 23 saat 43 dəqiqə: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi. – Sentyabr 19, 2025. URL: https://azertag.az/xeber/azerbaycanin_tam_suverenliyini_ve_erazi_butovluyunu_temin_eden_23_saat_43_deqiqe-3752767
4. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 9-cu görüşünün yekunları üzrə mətbuat açıqlaması: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliy. – May 15, 2024. URL: https://azertag.az/xeber/azerbaycan_respublikasi_ile_ermenistan_respublikasi_arasinda_dovlet_serhedinin_delimitasiyasi_uzre_dovlet_komissiyasinin_ve_ermenistan_respublikasi_ile_azerbaycan_respublikasi_arasinda_dovlet_serhedinin_delimitasiyasi_ve_serhed_tehlukesizliyi_meseleleri_uzre_komissiyanin_9_cu_gorusunun_yekunlari_uzre_metbuat_achiqlamasi-3004290
5. Duvanova, D. Syndrome of populism and the evolution of post-Soviet regimes: [Electronic resource] / Frontiers in Political Science 07, 08. – June 30, 2025. URL: https://www.frontiersin.org/journals/politicalscience/articles/10.3389/fpos.2025.1605136/full
6. Ermənistanın 6 “prinsipi”: [Elektron resurs] / Yeni Azərbaycan Partiyasının rəsmi internet saytı. – May 17, 2022. URL: https://yeni-azerbaycan.com/Arxiv_e69390_az.html
7. Huseynov, V. The Populist-Driven Foreign Policy of Armenia is a Call for Regional War: [Electronic resource] / Center for Analysis of International Relations and Multiculturalism – September 07, 2020. URL: https://aircenter.az/en/single/the-populist-driven-foreign-policy-of-armenia-is-a-call-for-regional-war-464
8. Lenderach, J.P. The Little Book of Conflict Transformaton. – New York: Skyhorse Publishing, Inc, – 2014. – 64 p.
9. Mustafayev, U.H. Sülh Sazişin paraflanmış mətni prinsipial mövqenin və diplomatik qalibiyyətin təcəssümüdür: : [Elektron resurs] / Tehsil.az saytı. – Avqust 12, 2025. URL: https://tehsil365.news/az/news/32987/
10. Şəfiyev F.R., Təhlil: Ermənistan və Azərbaycan arasında sülh danışıqları: [Elektron resurs] / Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi – Aprel 2023. URL: https://aircenter.az/uploads/VZiy4S5TrazG.pdf_

МИРНЫЙ ПРОЦЕСС ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ: СОВРЕМЕННЫЕ РЕАЛИИ И ТЕОРЕТИКО-КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ

Узейир Хабил Мустафаев
Академия Государственного Управления при Президенте Азербайджанской Республики, кафедра «Международные отношения и внешняя политика», доктор философии по политическим наукам

Гасан Зльчин Халилли
Бакинский Государственный Университет

РЕЗЮМЕ

В новейшей истории существуют два значимых исторических события, которые коренным образом изменили геополитическую ситуацию в регионе Южного Кавказа и привели к формированию совершенно новой политической конфигурации. Первым из них — как в хронологическом отношении, так и по масштабу — является распад Союза Советских Социалистических Республик (далее — СССР), вторым — Вторая Карабахская война, несмотря на то, что она продолжалась относительно короткий период — 44 дня. Поскольку Первая Карабахская война началась накануне распада СССР, ее последствия также можно рассматривать в контексте распада Советского Союза. Даже российско-грузинская война 2008 года не смогла изменить регион Южного Кавказа в такой степени, как два упомянутых выше значимых исторических события. Распад СССР привел к формированию длительного статус-кво, однако аспекты безопасности и мира оставались достаточно уязвимыми. После Второй Карабахской войны появилась возможность формирования и определения механизмов обеспечения долгосрочной среды безопасности в регионе, отвечающей интересам всех сторон.

В статье возможности обеспечения долгосрочного мира и безопасности в регионе Южного Кавказа рассматриваются как одно из последствий Второй Карабахской войны, а в данном контексте анализируется процесс миростроительства между Азербайджанской Республикой и Республикой Армения. Теоретической основой исследования послужила теория «трансформации конфликта» Джона Пола Ледераха, в рамках которой дана оценка продолжающимся политическим процессам.

Ключевые слова: *Карабах, война, мир, безопасность, конфликт, Южный Кавказ.*

THE PEACE PROCESS AFTER THE SECOND KARABAKH WAR: REALITIES AND THEORETICAL FOUNDATIONS

Uzeyir Habil Mustafayev
Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, PhD in Political Science

Hasan Elcin Khalilli
Baku State University

SUMMARY

In recent history, there are two significant historical events that have fundamentally transformed the geopolitical situation in the South Caucasus and resulted in the formation of an entirely new political configuration. The first of these, both chronologically and in terms of scale, was the dissolution of the Union of Soviet Socialist Republics (hereinafter referred to as the USSR), while the second was the Second Karabakh War, despite its relatively short duration of 44 days. Since the First Karabakh War began on the eve of the dissolution of the USSR, its consequences can also be linked to the collapse of the Soviet Union. Even the 2008 Russia–Georgia war did not transform the South Caucasus region to the same extent as these two major historical events. Although the dissolution of the USSR resulted in the establishment of a long-term status quo, the dimensions of security and peace remained considerably fragile. Following the Second Karabakh War, however, an opportunity emerged to establish and define mechanisms for ensuring a long-term security environment in the region that would be desirable for all parties.

The article approaches the prospects for ensuring long-term peace and security in the South Caucasus as one of the consequences of the Second Karabakh War and, in this context, analyzes the peacebuilding process between the Republic of Azerbaijan and the Republic of Armenia. The theoretical framework of the study draws upon John Paul Lederach's theory of **Conflict Transformation**, within which the ongoing political processes are assessed.

Keywords: *Karabakh, war, peace, security, conflict, South Caucasus.*

Rəyçi: Siyasi elmlər doktoru, professor
Elman Xudam oğlu Nəsirov

Məqalə redaksiyaya daxil olub: 01.08.2026
Çapa qəbul olunub: 29.08.2026
The date of the admission of the article to the editorial office: 01.08.2026
Accepted for publication: 29.08.2026